# Qarabağda ekoloji tarazlıq bərpa ediləcək

Qarabağ Dirçəliş Fondu ilə ekologiya istiqamətində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları arasında işğaldan azad edilmiş ərazilərdə ətraf mühitə vurulmuş zərərin aradan qaldırılması və ekoloji tarazlığın bərpasına həsr olunan görüşü keçirilib.

Görüşdə ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Azərbaycan Respublikası QHT-lərə Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü Azər Allahverənov, İDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf mühitin və təbii sərvətlərin tənzimlənməsi şöbəsinin məsul şəxsi Murad Şahverdiyev və eko təşkilatlarının nümayəndələri iştirak ediblər.

Tədbir zamanı nazir müavini Vüqar Kərimov, habelə Azər Allahverənov, Surxay Şükürov, Murad Şahverdiyev, Qarabağ Dirçəliş Fondunun Fandreyzinq və Kommunikasiya şöbəsinin müdiri Aybəniz İsmayılova erməni təcavüzü nəticəsində törədilən ekosid, ekoloji tarazlığın təmin olunmasında vətəndaş cəmiyyətinin rolu və digər mövzularda çıxış ediblər.

İşğaldan əvvəl burada "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil olmuş, çox sayda fauna və floranın əksəriyyətinin məhv edilməsindən bəhs edən tədbir iştirakçıları meşələrin, endemik flora və faunanın bərpası, yerli ağac növlərinin əkilməsi və ekoloji terrorun aradan qaldırılması üçün bütün eko təşkilatlarını, eyni zamanda cəmiyyətin üzvlərini fondun "Qarabağı Daha Yaşıl Bərpa Edək" hərəkatına qoşulmağa dəvət ediblər.

Tədbirin sonunda fondun PR və Kommunikasiya üzrə koordinatoru Pərvin Məmmədovanın moderatorluğu ilə sual-cavab keçirilib.



Müzakirələr zamanı işğaldan azad edilən ərazilərdə meşələrin bərpa olunması ilə yanaşı, ağacların kökləri və bitki örtüyünün, torpaq ehtiyatlarının qorunması, sürüşmələrin və eroziyanın qarşısının alınması, həmçinin çay və çay sahil zonalarında suyun saxlanması, keyfiyyətinin qorunması kimi məsələlərə xüsusi diqqət ayrılıb.

Yaşadığı yerdən asılı olmayaraq hər bir soydaşımızın işğaldan azad edilən ərazilərin daha çox yaşıllaşması üçün Qarabağ Dirçəliş Fonduna ianə edərək fondun bu istiqamətdə göstərdiyi təşəbbüslərə qoşulması bu ərazilərin dirçəlişi üçün olduqca zəruridir.

Ən başlıcası, bu təşəbbüs çərçivəsində əkilən ağaclar birliyimizin Qarabağda davamlı gələcəyə dəstəyini simvollaşdıracaq. Gələcək nəsillər bu meşələrin yaratdığı kölgə və təbii istirahət zonalarından zövq alacaq və bu bölgə bir daha çiçəklənən və sağlam ekosistemdən faydalanacaq.

İanə edin ki, Qarabağı birlikdə daha gözəl və daha yaşıl bərpa edək.

Azərbaycan Prezidentinin fərmanı ilə yaradılan Qarabağ Dirçəliş Fondu işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl sektorlarının tərəfdaşlığının inkişaf etdirilməsini, habelə ölkə daxilində və xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2021.- 12 oktyabr.- S.8.